XX əsrin bəlası - Deportasiya



Son 200 ildə Azərbaycan əraziləri və çar Rusiyası və Sovet Rusiyası tərəfindən təcavüz və işğallara məruz qalmış, anneksiya edilmiş, bu ərazilərə qeyri-qanuni olaraq erməni əhalisi köçürülmüş, onlar Qərbi Azərbaycanın müxtəlif ərazilərində məskunlaşmışlar. Çar Rusiyası ilə Qarabağ xanlığı arasında imzalanmış 1805-ci il Kürəkçay, çar Rusiyası ilə Qacarlar dövləti arasında 1813-cü ildə imzalanmış Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri Azərbaycan xalqının təməl, yəni onun legitimlik, öz torpaqlarının sahibi olmaq hüququnun cinayətkarcasına pozulması idi. Bu azmış kimi, Rusiya çarı I Nikolay tərəfindən Azərbaycan xalqının hüquqlarını pozan daha bir cinayət törədilib. İşğal olunmuş İrəvan və Naxçıvan xanlıqları ərazilərində qondarma inzibati qurum - "erməni vilayəti" yaradıldı. Erməni vandalları XX əsrin əvvəllərində, daha sonra 1918-1920-ci illərdə Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı analoqu olmayan vəhşiliklər həyata keçiriblər. Daşnak quldurlar Amasiya rayonunda daha qanlı faciələr törətmiş, insanlar zülmə və işgəncəyə məruz qalmışdır.

Amasiyadan ayrıldılar, Qars onlara qucaq açdı

Qarlı dağ aşırımlarında yaşanan faciələr

Qərbi Azərbaycanın şimal-qərbində yerləşən Amasiya rayonu 1930-cu ilədək Ağbaba rayonu adlanıb və Arpa çayının sağ sahilində yerləşir, ərazisi 614 kvadratkilometr, mərkəzi Amasiya şəhər tipli qəsəbə olub.

Dəfələrlə qanlı müharibələr meydanına çevrilmiş Amasiya ayrı-ayrı dövrlərdə monqolların, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tabeliyində olmuş, XVI əsrdən etibarən Osmanlı imperiyasının tərkibinə daxil edilmişdir. Çar Rusiyasının işğalından sonra Amasiya-Şörəyel bölgəsi 40 il müddətində Qars vilayətinin Aleksandropol qəzasına qatılmışdır. Sovet hökuməti qurulanda bu qəza Leninakan qəzası adlandırılmış və Qızılqoç (Quqasyan) rayonu ilə birlikdə Ağbaba nahiyəsinə daxil edilmişdir. Amasiya rayonunun azərbaycanlıları 1918-1920-ci illərdə ermənilərin soyqırımına məruz qalmış, əhalinin əksər hissəsi zülm və işgəncədən qurtulmaq üçün Türkiyə və İrana üz tutmuşdur.

Bu yazıda biz həmin illərdə Amasiyadan Qarsa köçmüş ailələrdən birinin acı taleyi haqqında söhbət açacağıq. Ağır günlərdə köç karvanlarına qoşulan insanlardan biri də Ayıçıngılı (Təzəibiş) kəndinin tanınmış el ağsaqqalı Həmzə kişi olub. O, dünyasını dəyişsə də, ancaq saralmış vərəqlərdə xatirələri qalıb. Deyilənə görə, onun ürək sözlərini yaxın qohumlarından biri olduğu kimi kağıza köçürüb. Bu gün də həmin ürək sözləri əziz xatirə kimi ailələrində qorunub saxlanılır.

Həmzə kişinin nəvəsi **Ötüken Senger** hazırda Qars bələdiyyəsinin sədridir. O, bu vəzifəyə neçə ay öncə seçilib. Biz onunla Bakıda görüşdük. Şəhərimizə qısamüddətli səfərə gəlmişdi. Ötüken Qərbi azərbaycanlıların Qars şəhərində keçirdikləri tədbirlərdə yaxından iştirak edir. Söhbət əsnasında o, XX əsrin əvvəllərində baba, nənə, ata və yaxın qohum-əqrəbalarının Amasiyadan necə baş götürüb qaçdıqlarından danışdı, özü də kövrələ-kövrələ:

- Hər dəfə babamın Ağbabalı günlərini xatırlayarkən Qarsda ürək yanğısı ilə dediyi misralar məni çox kövrəldir, həsrətində olduğum və üzünü görmədiyim Ağbaba ellərinə aparır.

O dağların zirvəsinə
Gələ bilsəm, dərdim olmaz.
Bircə günlük kəndimizdə
Qala bilsəm, dərdim olmaz.
***
Ha sorsaq da hesabını,
Verən yoxdur cavabını.
Orda könül rübabını
Çala bilsəm, dərdim olmaz.

Senger bəy babası Həmzənin ömür kitabını vərəqlədi. Onların Ağbaba mahalından Türkiyəyə qaçdıqlarından, Qarsın amasiyalılara necə qucaq açdığından danışdı:

- Baba hər dəfə Qərbi Azərbaycandan, Amasiyadan söhbət açanda sahibsiz qalan evlərini xatırlayır, hər qarışında ayaq izləri qalan atlas geyimli dağları, Arpa çayının nəğməli sahillərini xatırlayır, erməni xəyanətindən epizodlar danışardı.

Ermənilər ara vermədən qırğınlar törədirdi. Nə qədər dözmək olardı, bıçaq sümüyə dirənmişdi. Babam söyləyirdi ki, günlərin bir günündə ya Əli səndən mədət, - deyib yaxın qohumlarımla ata-baba yurdumuzdan ayrılmalı olduq. Tələm-tələsik yır-yığış edib yola düşdük.

Hətta ərzaq götürməyi də unutduq. Yolların çətinliyi, quşqonmaz qayalıqlar, sərt döngələr, qarlı-çovğunlu dağ aşırımları bizi yaman yordu. Bircə qurtum suya da möhtac idik. Dəhşətli hal budur ki, yollarda erməni işgəncəsindən həyatlarını itirənlər də var idi. Çoxları qarın-çovğunun təsirindən huşunu itirmişdi...

Babamgil kövrələ-kövrələ göz yaşları ilə bir daha kərpic-kərpic tikdikləri evləri xatırlayır, sağ-salamat Türkiyəyə çatmaq üçün ulu Tanrıdan imdad diləyirdilər.

Bir payız axşamında erməni zülmündən yaxa qurtarmış babamgilin ailəsi mənzilbaşına çatdı, bu acı taleli insanlara Qars qucaq açdı, isti nəfəsi ilə onları qızdırdı. Ancaq babamgil bir daha Qarsdan Amasiyaya dönmədi. Gözləri həmişə dağlarda oldu, həmişə qəribsəmiş yurd yerlərini xatırladı.



Senger bəy vurğuladı ki, Türkiyədəki azərbaycanlıların əksəriyyəti vətən, yurd həsrəti ilə yaşayır. Onlar əmindirlər ki, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində çox tezliklə Qərbi azərbaycanlılar Amasiya, Basarkeçər, Masis, Zəngəzur və erməni işğalı altında olan digər ərazilərə qayıdacaqlar.

Şuşa, Xankəndi, Kəlbəcər və digər işğal altında olan ərazilər düşməndən azad olunmuşdur. Bu, Qarsdakı insanları ürəkdən sevindirir.

Bələdiyyə seçkilərində inamlı qələbəsinə görə Senger Ötükeni bir daha təbrik etdik. O bildirdi ki, bələdiyyə sədri kimi işin öhdəsindən ləyaqətlə gələcək, seçicilərin etimadını qazanacaq, xüsusilə Azərbaycan-Türkiyə dostluğunun yüksələn xətlə inkişaf etməsinə Qarsdakı Qərbi azərbaycanlıların ata-baba yurdlarına dönmələrinə maksimum səy göstərəcək.

Qədir ASLAN,
"Respublika".